*Təhsil millətin gələcəyidir!*

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

8 dekabr 2023-cü il №47 (9055) www.muallim.edu.az muallim@edu.gov.az

**XV qurultayın əks-sədası**

**Azərbaycan müəllimləri XVI qurultayına hazırlaşır**

# DÜNYA MƏKTƏBLİLƏRİ BAKIDA YARIŞIRLAR

## Beynəlxalq STEAM Azərbaycan Festivalından reportaj

Dekabrın 4-də Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalının açılış mərasimi keçirilib. Festivalın açılış mərasimində dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, ali məktəb rektorları, elmi-tədqiqat institutlarının direktorları, tanınmış ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Açılış mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev üçüncü ildir ki, ənənəvi olaraq keçirilən festivalın təhsil sahəsində nüfuzlu, əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırıb. Nazir bildirib ki, Azərbaycanın bütün bölgələrini təmsil edən 800-dən, eləcə də xarici ölkələrdən gələn 150 nəfərdən artıq iştirakçı festivala qatılıb. Emin Əmrullayev vurğulayıb ki, STEAM layihəsi məktəblərdə dəyişməli olan məzmunun yeni innovativ təhsil nümunəsidir və 4 il ərzində 100 mindən artıq azərbaycanlı şagird bu tipli müasir təhsil məzmununa cəlb edilib.

Ardı səh. 2



## “Festival xoş xatirələrlə yaddaşımıza yazılacaq”







## SAF 2023 iştirakçılarının təəssüratları

### “Uğurlu nəticə göstərməyə iddialıyıq”

*Şəmkir rayonu Kimya-biologiya təmayüllü liseyini “Boat Racing” - “Gəmi yarışması” kateqoriyası üzrə təmsil edən “Xebec” komandasının mentoru Nəsib Həbibov Bakı Ali Neft Məktəbinin II kurs tələbəsidir:* “Biz komandamızla ilk qayıq modelimizi qurduq və “Xebec” adlandırdıq. Düşünürük ki, gələcəkdə bu qayığı daha peşəkar səviyyəyə gətirib çıxaracağıq. Onu da qeyd etmək istərdim ki, bu layihənin ideya müəllifi və həyata keçirilməsində ən çox əməyi keçən şəxs komandamızın kapitanı Mətin Həbibovdur. Uğurlu nəticə göstərməyə iddialıyıq”.

### “Uğur qazanacağımıza çox ümid edirik”

*Türkiyənin Adana şəhərindən SAF 2023-ə “Boat Racing” - “Gəmi yarışması” kateqoriyası üzrə qatılan “Alesta Rov”komandasının rəhbəri İsmail Akdaş:* “Yarışmaya iki şagirdimlə qatılmışam. Layihəmiz su altında müxtəlif tapşırıqları yerinə yetirəcək qayığın nümayişindən ibarətdir. Buna sualtı dron da deyə bilərik. Festival çox gözəl təşkil edilib. Festivalda çox izdihamlı bir ortam var və bu da rəqabəti daha da artırır. İlk təəssüratlarımız olduqca müsbətdir və uğur qazanacağımıza çox ümid edirik”.

### “Festivalın təşkilinə görə Azərbaycana təşəkkür edirəm”

*Qazaxıstanı təmsil edən “1729-V Victorius” komandasının mentoru Eduard Kunayev:* “Bizim komandamız yarışda V5 və VEX IQ robotları təqdim edir. Biz bu festivaldan sonra Sloveniyada, Türkiyədə, Birləşmiş Ərəb Əmirliklərində təşkil ediləcək yarışlara qatılacağıq. Bundan öncə komandamız Çində keçirilən müsabiqədə VEX IQ üzrə iştirak edərək 6-cı, bir ay qabaq isə V5 üzrə ABŞ-də keçirilən seçim çempionatında 18-ci yerə layiq görülüb. Möhtəşəm festivalın təşkilinə görə Azərbaycana təşəkkür edirəm”.

### “Festivalda iştirak etdiyimə görə çox şadam”

Niderlandın Summa Kollecini təmsil edən 19 yaşlı iştirakçı Niels Teuninenvan Manen tələbədir: “Bu festivala “H2 Grand Prix PRO” kateqoriyası üzrə qatılmışıq. Tələbə olaraq biz gələcəyin bərpa olunan enerji prinsipləri haqqında hərtərəfli araşdırma aparırıq və hidrogenlə işləyən avtomobillər dizayn etməkdə maraqlıyıq. Yaratdığımız yanacaq hüceyrəli RC avtomobillərini digər iştirakçıların maşınları ilə yarışdıracağıq və bununla bərabər yarışımızdan böyük zövq alacağıq. Bu möhtəşəm festivalda iştirak etdiyimə görə çox şadam”.

**Qurultayda iştirak etməyin qüruru** Səh.5

**Nəticəsi ağır olan QAFİLLİK** Səh.5

**Fövqəladə hallara hazır ol!** Səh.6

**"Yeniliklərə açıq olmalıyıq"** Səh.8

# DÜNYA MƏKTƏBLİLƏRİ BAKIDA YARIŞIRLAR

## Beynəlxalq STEAM Azərbaycan Festivalından reportaj







Əvvəli səh. 1

Elm və təhsil naziri qeyd edib ki, “2025-ci ildə yazılacaq yeni elm və təhsil standartlarında STEAM-ın bəzi elementlərini milli kurikulumun hissəsinə çevirməyi düşünürük. Belə ki, yeni standartlarda 3D çap, robototexnikanın bəzi elementləri texnologiya fənninin məzmununa daxil olunacaq. Nazirin sözlərinə görə, XXI əsr bacarıqlarının tələblərinə uyğunlaşmaq üçün qarşıda duran məqsəd gələcək nəslin ənənəvi olaraq humanitar və ya texniki yönlərə bölünməklə deyil, hərtərəfli inkişafını təmin etməkdir. Emin Əmrullayev çıxışının sonunda festivalın təşkilində əməyi olan hər kəsə təşəkkür edib, iştirakçılara uğurlar arzulayıb.

Sonra çıxış edən “STEAM Azərbaycan” layihəsinin rəhbəri İqrar Nəzərov layihə və festival barədə ətraflı məlumat verib. Bildirilib ki, STEAM layihəsi 2019-cu tədris ilindən başlayaraq ölkə üzrə 396 məktəb və 150 minə yaxın şagirdi əhatə edir, məktəblərdə tətbiq olunan layihə ilə yanaşı Şuşa Məktəbinin nəzdindəki STEAM Mərkəzi də daxil olmaqla ümumilikdə 25 STEAM Mərkəzi fəaliyyət göstərir. Vurğulanıb ki, 2026-cı ilə kimi layihə üzrə şagird sayının 280 minə çatdırılması nəzərdə tutulur.

İ.Nəzərov bildirib ki, İngiltərə, Norveç, Slovakiya, Bolqarıstan, Danimarka, Çex Respublikası, Türkiyə, Azərbaycan daxil olmaqla 8 ölkədən SAF 2023-ə 96 nəfərlik münsif heyəti qatılıb. Builki festivalda 15 kateqoriya üzrə yarışların təşkil olunacağını qeyd edən layihə rəhbəri sonda iştirakçıların 60 faizinin beynəlxalq qaydalara uyğun olaraq və 25 faizinin xüsusi kateqoriyalar üzrə mükafatlandırılacağını vurğulayıb.

Daha sonra aparıcılar Leyla Quliyeva və Ağa Nadirovun təqdimatında davam edən Beynəlxalq STEAM Azərbaycan Festivalının açılış mərasimində iştirakçı komandalar bir-bir səhnəyə dəvət olunub.

***

Dekabrın 5-də Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi — Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, elm və təhsil naziri Emin Əmrullayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, mədəniyyət naziri Adil Kərimli, müdafiə sənayesi naziri Vüqar Mustafayev Bakı Ekspo Mərkəzində olublar.



Festival çərçivəsində təşkil edilən “İnnovativ layihələr” sərgisi ilə yaxından tanış olan qonaqlara məlumat verilib ki, festivalın final mərhələsində 11 ölkəni təmsil edən 868 yerli, 159 xarici iştirakçı yarışır.

Festivalın üçüncü günündə Azərbaycan Respublikası Prezidentinin köməkçisi — Hərbi-texniki təminat məsələləri şöbəsinin müdiri Andrey Sipilin, elm və təhsil naziri Emin Əmrullayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, səhiyyə naziri Teymur Musayev, Naxçıvan Muxtar Respublikası təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov, Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri Tahir Mirkişili, SOCAR-ın prezidenti Rövşən Nəcəf Bakı Ekspo Mərkəzini ziyarət ediblər.

Qonaqlar festival çərçivəsində keçirilən yarışların gedişatı ilə tanış olub, iştirakçılara uğurlar arzulayıblar.

Qeyd edək ki, dekabrın 8-dək davam edəcək STEAM Festivalının keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan təhsilalanların müəyyənləşdirilməsi, innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsindən ibarətdir.

# “Festival xoş xatirələrlə yaddaşımıza yazılacaq”

## SAF 2023 iştirakçılarının təəssüratları

### “Uşaqlarımız robotları hərəkətə gətirir və idarə edirlər”

*Bakı şəhəri 245 nömrəli tam orta məktəbin STEAM müəllimi Rəsmiyə Mehdiyeva:* “Komandamızın adı “Happy Lego King”dir və 4 nəfər üzvü var. Onlar ibtidai sinif şagirdləridir və festivala “Master Peace” layihəsi ilə qatılıblar. Layihəmizin əsas mövzusu heyvanların qorunması və sağlamlıq imkanları məhdud insanların şəhərdə, parklarda rahat istirahət etməsi üçün yaradılan şəraitdir. Bu hərəkət edən lego robotu komanda üzvü Malik Mehdizadə düzəldib və onun adı “Qoruyucu robot”dur. Uşaqlarımız robotları hərəkətə gətirir və idarə edirlər. Ümid edirəm, layihəmiz münsiflər heyəti tərəfindən yüksək qiymətləndiriləcək”.

### “Uşaqlarda texnologiyaya, alqoritmləşməyə maraq artır ”

*Brilliant Allahverdiyeva Elitar Gimnaziyanın komandasının rəhbəridir:* “Mexatronika” kateqoriyası üzrə yarışan “Tandem” komandamız 8-ci sinif şagirdləri olan 2 iştirakçı ilə - Məryəm İsmayıl və Gültac Əliyeva ilə yarışa qoşulub. Finala CNC lazer kəsici aparatda hazırladığımız “Labirint” layihəsi ilə keçmişik. Festivalda qızlarımız öz Derbi maşınlarını hazırlayacaq və yarışdıracaqlar. Hansı daha sürətli getsə, o qazanmış olur. Festivalın təşkilatına görə əməyi keçən hər kəsə minnətdarıq. Festival uşaqlarda rəqəmsallaşmaya, müasir dövrün tələb etdiyi texnologiyaya, alqoritmləşməyə böyük maraq oyadır”.

### “Böyük ümidlərlə yarışa qatılmışıq”

*Azərbaycan Dövlət Neft və Sənaye Universitetini “Deep Dive” - “Sualtı dronlar/gəmi” kateqoriyası üzrə təmsil edən “Black Squad” komandasının kapitanı Əli Rzayev və komanda yoldaşları BA proqramları, “Robototexnika və mexatronika” ixtisasının III kurs tələbələridir:* “Gördüyünüz dənizaltı dronumuzu idarə etmək üçün mühərriklərdən istifadə etmişik. Dronun içərisində kamera var və suyun altında olan metal parçalarını görüb götürmək üçün istifadə edilir. Dronun su keçirməzliyi üçün su filtrindən istifadə etmişik və boşluq olan hissələri bərkiyən maye ilə bağlamışıq. Həmçinin beləliklə elektronika dövrəmizi qorumuş oluruq. Gövdə hissəsini avtomatik Arximed qüvvəsi yaradan yüngül materialdan düzəltmişik. İstədiyimiz vaxt mühərrikləri idarə edərək dronumuzu batırır və suyun altından çıxarırıq. İki mühərrik irəli-geri hərəkət etmək, 4 mühərrik isə dronun suya dalıb sonra qalxması üçündür. Su altında stabilliyi qorumaq çox önəmli olduğuna görə modelimizdə bu məqama çox önəm vermişik. Böyük ümidlərlə, üzərimizdə çox işləyərək yarışa qatılmışıq. Bu festival müxtəlif ideyaları reallaşdırmaq, həll yolları araşdırmaq üçün tələbələr arasında yeni əməkdaşlıqlara şərait yaradır”.

### “Belə layihələrin həyata keçirilməsi təhsil sahəsində böyük nailiyyətdir”

*Bakı Avropa Liseyini “H2 Grand Prix PRO” kateqoriyası üzrə təmsil edən “Hot Boys” komandasının mentoru Nazim Babayev bizi iştirakçılarla tanış edir:* “Komanda üzvlərimiz Hakim Əlizadə 10-cu, Tamerlan Məmmədov isə 9-cu sinif şagirdləridir. Onlar özləri yığdıqları maşını yarışda təqdim edirlər. Maşın su batareyaları ilə işləyir. Burada akkumulyator da var. Bu batareyaların digərlərindən fərqi ondadır ki, adi batareyalarla maşın 10 dəqiqə gedə bilərsə, su batareyaları ilə 50 dəqiqəyə qədər vaxt ərzində çox böyük məsafə qət edə bilər. Həmçinin su batareyası maşına sürət və çeviklik verir, eyni zamanda təmiz enerji hesab edilir. Düşünürəm ki, belə layihələrin həyata keçirilməsi təhsil sahəsində böyük nailiyyətdir”.





### “Festivalın təşkili üçün çox təşəkkür edirik”

*Festivalda Türkiyənin Çanaqqala şəhərinin FMA Kollecini təmsil edən “Castle Tech” komandasının mentoru Betül Belma Tural özlərini belə təqdim edir:* “Bura gəlməzdən öncə komandamızla ilk turnirimizi İstanbulda gerçəkləşdirdik və böyük nailiyyət əldə etdik. Belə ki, uğurla iştirak edərək “Built Award” mükafatına layiq görüldük. Sonra isə Azərbaycana dəvət edildik. Artıq bu festivalda yarışmağa hazırlaşırıq və çox həyəcanlıyıq. “VEX IQ” kateqoriyası üzrə yarışa qatılmışıq. Uşaqlar robot dizayn etdilər və sonradan onu daha da təkmilləşdirərək 20 xal əldə etdilər. Burada da həmin xalı gözəl bir şəkildə göstərə biləcəklərini düşünürəm. Belə gözəl festivalın təşkili üçün çox təşəkkür edirik”.

### “Festival izdihamlılığı ilə məni heyrətləndirir”

*Özbəkistanın Daşkənd şəhərində yerləşən Al-Beruniy Beynəlxalq Məktəbinin ABIS STEAM Akademiyasını təmsil edən Beqoya Bekmuratova təəssüratlarını bölüşür:* “Bizim komandamızın mentoru Mirzo Murodillayevdir. Komandada 3 nəfərik və robot hazırlamışıq. Uşaqlar hazırda tapşırıqların yerinə yetirilməsi üçün robotun kodlaşdırılması ilə məşğuldur. Komandamız “First LEGO League Explore” kateqoriyası üzrə festivala qatılıb və qalib gəlmək üçün bütün gücünü səfərbər edib. Mən bizim komandanın qalibiyyətə yaxın olduğuna inanıram. Festival məni yüksək səviyyədə təşkil olunması və izdihamlılığı ilə heyrətləndirir”.

### “Çox maraqlı layihələr görürük”

*Norveçdən festivala gələn “The Code Girls” komandasının mentoru Audun Andersen 3 məktəbli qızla təmsil olunduqlarını qeyd edir:* “Biz “First LEGO League Explore” kateqoriyası üzrə yarışa qatılmışıq. Qızlarımızın hazırladığı layihə uşaqlar üçün fəal əyləncə mərkəzidir. Gördüyünüz kimi, qızlar lego robotlar yığaraq onları yarışa tam hazır vəziyyətə gətiriblər. Çox möhtəşəm bir festival keçirilir. Festivalda digər iştirakçıların layihələri ilə də tanış oluruq, çox maraqlı layihələr görürük”.

### “Festival həyatımıza yeni rəng qatacaq”

*Çexiya Respublikasını təmsil edən “HC Verra racing team 44” komandasının üzvü Adele Hrbek “H2 Grand Prix PRO” kateqoriyası üzrə qatıldıqlarını və hidrogenlə işləyən RC avtomobilləri layihələndirdiklərini deyir:* “Gələcəkdə bu avtomobillərin kütləvi istehsalında çox maraqlıyıq. Festival heyrətamizdir, insanlarınız çox qonaqpərvər və mehribandırlar. Düşünürəm ki, bu festival bizim həyatımıza yeni bir rəng qatacaq və çox xoş xatirələrlə yaddaşımıza yazılacaq”.

**Lamiyə ƏLİMƏRDANOVA**

# DTX-nin Akademiyasının 25 illik yubileyi ilə bağlı tədbir keçirilib

Dekabrın 1-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının yaradılmasının 25 illik yubileyi ilə bağlı tədbir keçirilib.








Tədbirdə hüquq-mühafizə və digər dövlət orqanlarının rəhbərləri, DTX-nin rəhbər heyəti, həmçinin əməkdaşları, ali təhsil müəssisələrinin rektorları, millət vəkilləri iştirak ediblər.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, ardınca Dövlət Himni səsləndirilib.

Sonra akademiyanın 25 illiyinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev akademiyanın professor-müəllim heyəti və kursantlarına təbriklərini çatdırıb, Heydər Əliyevin müvafiq sərəncamı ilə xüsusi xidmət orqanları üçün ali təhsilli kadrların hazırlanması məqsədilə təhlükəsizlik orqanının akademiyasının yaradılmasının, eləcə də 25 illik yubileyinin məhz Ümummilli Liderin anadan olmasının 100-cü ildönümünə təsadüf etməsinin mühüm hadisə olduğunu vurğulayıb.

Əli Nağıyev həmçinin Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ötən müddət ərzində akademiyanın maddi-texniki bazasının təkmilləşdirilməsi, təhsilin müasir tələblərə uyğun şəkildə təşkili, çağdaş texnoloji yenilikləri uğurla tətbiq etməklə tədris prosesinin səviyyəsinin yüksəldilməsi yönündə görülən işlərdən danışıb.

Daha sonra digər qonaqlar da çıxış edərək Azərbaycanda təhsil-tədris sahəsində aparılan islahatlardan, akademiyanın bu strateji sektorun inkişafına verdiyi töhfələrdən bəhs edib, professor-müəllim heyətinə, kursantlara çətin və şərəfli yolda uğurlar arzulayıblar.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra qonaqlara mədəniyyət və incəsənət xadimlərinin ifasında bədii proqram təqdim olunub.

Qeyd edək ki, akademiyanın yaranmasının 25 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər elmi-praktiki konfransla davam edib.

# Məişət zorakılığına həsr olunmuş beynəlxalq konfrans



**Dekabrın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda beynəlxalq konfransın açılış mərasimi keçirilib.**

Konfransda elm və təhsil naziri Emin Əmrullayev, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Vladanka Andreeva və digər qonaqlar iştirak ediblər.

Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, ardınca isə məişət zorakılığı ilə mübarizəyə dair videoçarx nümayiş etdirilib.

Salamlama nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020—2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrasından danışıb.

Komitə sədri aparılan genişmiqyaslı məlumatlandırıcı və maarifləndirici tədbirlərin məişət zorakılığı hallarının daha çox aşkar edilməsinə təkan verdiyini vurğulayıb.

Konfransda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev valideynlər arasında olan konfliktin uşaqlara birbaşa təsirindən və ailədə baş verən zorakılığın cəmiyyətdə özünü büruzə verməsindən danışıb. Nazir əlavə edib ki, məişət zorakılığının qarşısının alınması üçün qabaqlayıcı tədbirlər olduqca vacibdir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxışında vurğulayıb ki, Azərbaycanda 100-ü uşaq olmaqla 154 nəfər zorakılığa məruz qalan şəxsə sosial xidmət göstərilib.

Daha sonra digər qonaqlar çıxış edərək məişət zorakılığı ilə mübarizə istiqamətində görülən işlər və qarşıda duran vəzifələrdən danışıblar. Bildirilib ki, ailədaxili münaqişələr uşaqların vətəndaş və şəxsiyyət kimi formalaşmasına əsaslı mənfi təsirlər göstərir, zorakılıq hallarının cəzasız qalmasının bu kimi hadisələrin yenidən təkrarlanmasına, problemin dövriliyinin yaranmasına, eləcə də həllinin daha da mürəkkəbləşməsinə səbəb olur. Əlavə edilib ki, qadın və qızların, ümumilikdə cəmiyyətin bütün üzvlərinin təhsilli olması, öz hüquqlarını bilməsi, ailə dəyərlərinin gücləndirilməsi bu problemlərlə mübarizəyə mühüm töhfələr verə bilər.

Çıxışlardan sonra konfrans Milli Fəaliyyət Planının icrası istiqamətində görülən işlər, mövcud problemlər və perspektivlər, eləcə də bu sahədə digər ölkələrin müsbət təcrübələrinə dair panel müzakirələrlə davam etdirilib.

Konfrans dekabrın 7-də başa çatıb.

## Elm və təhsil naziri Ağdamda (Quzanlı qəsəbəsi) vətəndaşları qəbul edəcək

**Elm və təhsil naziri Emin Əmrullayev 22 dekabr tarixində Ağdam rayonunun Quzanlı qəsəbəsində vətəndaşları qəbul edəcək. Qəbulda Ağdam, Ağcabədi, Bərdə, Şuşa, Füzuli, Tərtər, Xocalı, Xocavənd sakinləri iştirak edə bilərlər.**

Adları çəkilən rayonların sakinləri 14 dekabr (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

# İspan memarlar AzMİU-da tədrisə cəlb olunacaqlar

İspaniyanın məşhur memarları və memarlıq şirkətlərinin rəhbərləri Azərbaycan Memarlıq və İnşaat Universitetinə (AzMİU) səfər ediblər. "F-Holding"in təşkilatçılığı ilə reallaşan səfər heyətində "Bilbao Architecture Team"in (BAT) təsisçisi Xabier Arranz, BAT-ın tərəfdaşları Juan Miguel Rioboo Fuentes və Peru Canada, "Fundacion Metropoli"nin London Şəhər Laboratoriyasının direktoru Naiara Vegara, "Ortiz Leon Arquitectos"un həmtəsisçisi Inigo Ortiz, ETSASS-ın baş memarı Jaime Otegui təmsil olunublar.

AzMİU-nun rektoru Gülçöhrə Məmmədova qonaqlarla görüşüb. Görüşdə AzMİU-nun kafedra müdiri, Azərbaycan Memarlar İttifaqının sədri professor Elbay Qasımzadə, AzMİU-nun keçmiş tələbəsi, "F-Holding"in təsisçisi, İspaniyadakı Azərbaycan diasporunun tanınmış simalarından olan Fərid Mustafayev, memarlıq təhsili üzrə professor-müəllim heyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Rektor G.Məmmədova AzMİU haqqında məlumat verib, universitetdə aparılan tədris prosesi, fakültələr, ixtisaslar, akademik heyət, beynəlxalq əməkdaşlıq əlaqələri, ikili diplom proqramları, mübadilə proqramlarından danışıb, istehsalatla qurulan sağlam əməkdaşlıq əlaqələrini diqqətə çatdırıb.

Rektor qeyd edib ki, AzMİU-nun ixtisaslarına tələb daha da yüksəlib: "Bu gün Qarabağda 30 il müddətində dağıdılan şəhərlərimiz yenidən bərpa olunur. Çalışırıq, təhsilimizi yüksək səviyyədə quraq ki, məzunlarımız, mütəxəssislərimiz memarlığın ən qabaqcıl təcrübəsindən yararlansın, onlar öz bilik və bacarıqlarını həmin ərazilərdə bərpa-quruculuq işlərinə sərf etsinlər. Yeni şəhərlər və kəndlər inşa etsinlər və soydaşlarımız öz yurd-yuvalarına daha tez qayıda bilsinlər".

### "Dövlət-özəl tərəfdaşlığının ana xəttini təhsilin keyfiyyətini da artırmaq təşkil edir"

AzMİU-nun memarlıq və dizayn sahələrində İtaliya, İspaniya, Fransa, Türkiyə və digər ölkələrin nüfuzlu universitetlərilə qurulan əməkdaşlıq əlaqələrinə toxunan rektor bu əməkdaşlıqla paralel istehsalat müəssisələri ilə tərəfdaşlığın önəminə diqqət çəkib: "Bizim üçün dövlət-özəl tərəfdaşlığının ana xəttini təhsilin kefiyyətini daha da artırmaq təşkil edir. Bu baxımdan, bugünkü görüş memarlıq təhsili üçün böyük əhəmiyyət daşıyır. AzMİU bir çox sahələrdə istehsalat müəssisələri ilə əməkdaşlıq əlaqələri qurub. Qurulan bu əlaqələrin başlıca istiqaməti isə təhsilin keyfiyyətinin artırılmasıdır. Biz çalışırıq ki, tələbələrimiz istehsalatdan olan mütəxəssislərdən praktik təcrübə qazansınlar. İspan memarların gələcəyə yönəlik binaların layihələndirilməsi sahəsində zəngin təcrübəsi var. Mən əminəm ki, onların təcrübəsindən bizim tələbələr faydalana biləcəklər".

### "Tələbələrə xoş xəbər — AzMİU-nun yataqxana kompleksi əsaslı təmir olunacaq"

"F-Holding"in təsisçisi Fərid Mustafayev çıxışında memorandumun Azərbaycan memarlarının xaricdə, xarici memarların isə Azərbaycanda fəaliyyətinə şərait yaradacağını vurğulayıb: "Biz peşəkar bir komanda ilə burdayıq. Ümid edirik ki, gəlişimiz AzMİU üçün çox faydalı olacaq. Mənim təsisçisi olduğum şirkət Azərbaycanla yanaşı, İspaniyada da fəaliyyət göstərir. Gördüyünüz memarlar hər biri öz profillərində kifayət qədər tanınan memarlardır. Hazırda işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri aparılır. Bu işlərə töhfə vermək üçün yüksək bilik və bacarıqlara malik memarlar yetişdirmək lazımdır. Mən inanıram ki, əməkdaşlığımız yetişəcək gənc memarlara dünya səviyyəli mütəxəssislər olmasına töhfə verəcək".

Fərid Mustafayev çıxışında AzMİU-nun yataqxana kompleksi ilə bağlı məsələyə də toxunub. Şirkət rəhbəri qeyd edib ki, "F-Holding" yataqxananın təmir işlərini öhdəsinə götürür və gələn ildən etibarən təmir-bərpa işlərinə başlamaq mümkündür.

Professor Elbay Qasımzadə isə çıxışında görüşü Azərbaycan memarlığı üçün əlamətdar hadisə adlandırıb.

### "Yeni memorandum xarici təcrübədən yararlanmağa şərait yaratdı"

Görüşdə bir sıra istiqamətlər üzrə də əməkdaşlıq məsələləri müzakirə olunub və AzMİU ilə "F-Holding" arasında anlaşma memorandumu imzalanıb.

Dövlət-özəl əməkdaşlığına əsaslanan memorandumda xarici mütəxəssislərin AzMİU-da memarlıq fakültəsində tədrisə, müxtəlif proqramlara, ustad dərslərinə cəlb olunması, konfrans və konqreslərin keçirilməsi nəzərdə tutulub. Eyni zamanda, birgə layihələrin işlənilməsi planlaşdırılır.

Daha sonra ispan memarların memarlıq fakültəsinin müəllim və tələbələri üçün təqdimatları təşkil olunub.

## BDU ilk dəfə olaraq "QS Sustainability 2024" reytinqində yer alıb

**Dünya üzrə nüfuzlu reytinq təşkilatı olan "QS Quacquarelli Symonds" agentliyi tərəfindən tərtib olunan "QS Sustainability 2024" reytinqi üzrə qlobal nəticələr elan olunub. Bakı Dövlət Universiteti (BDU) ilk dəfə olaraq "QS Sustainability 2024" reytinqində yer alıb.**

Dünya üzrə 1403, Azərbaycandan, sadəcə 2 ali təhsil müəssisəsinin yer ala bildiyi reytinqdə BDU ekoloji davamlılıq (enviornmental sustainability) indikatoru üzrə 241-ci yerdə qərarlaşıb. Adıçəkilən reytinq universitetlərin təhsil və tədqiqat vasitəsilə sosial və ətraf mühitə təsirini müəyyən olunmuş meyar və indikatorlar üzrə qiymətləndirir.

Məlumat üçün bildirək ki, "QS Europe 2023" reytinqi üzrə də BDU fakültə-tələbə (faculty-student ration) nisbətinə görə Avropa üzrə 90-cı, Azərbaycan üzrə isə 1-ci yerdə qərarlaşıb. Beynəlxalq tədqiqat şəbəkəsi (International Research Network) indikatoru üzrə BDU Azərbaycan ali təhsil müəssisələri arasında 1-ci olaraq müəyyənləşib.

# BMU-da Ümummilli Lider Heydər Əliyevin büstünün açılış mərasimi və konfrans keçirilib

**Dekabrın 7-də Bakı Mühəndislik Universitetində (BMU) Ümummilli Lider Heydər Əliyevin büstünün açılış mərasimi və Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf mərhələləri" mövzusunda konfrans keçirilib.**



yüksək dəyərləndirib, bu addımın universitetdə çalışanlar üçün böyük məna kəsb etdiyini vurğulayıb.

Konfransın aktual mövzuya həsr olunduğunu deyən nazir bütün sahələrdə olduğu kimi, təhsildə də Heydər Əliyev strategiyalarına sadiq qalındığını və Ümummilli Liderin elm və təhsil siyasəti konsep-





Büstün açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, BMU-nun rektoru Yaqub Piriyev, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Qonaqlar Azərbaycanın Xalq rəssamı, heykəltaraş, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Natiq Əliyevin müəllifi olduğu sənət əsəri ilə bağlı məlumatlandırılıb.

Ardınca "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf mərhələləri" mövzusunda konfrans keçirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan konfransda tədbir iştirakçıları Ulu Öndərin əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər. Daha sonra Heydər Əliyevin fəaliyyəti ilə bağlı videoçarx nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən rektor Yaqub Piriyev BMU-da Ulu Öndərin büstünün qoyulmasının böyük qürur olduğunu vurğulayaraq bu dəyərli sənət əsərinin ərsəyə gəlməsində əməyi keçən hər kəsə minnətdarlığını bildirib.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında BMU-da Heydər Əliyevin büstünün açılışını siyası əsasında islahatların uğurla davam etdirildiyini vurğulayıb, Heydər Əliyevin zəngin irsinin, həyat və fəaliyyətinin gənc nəsil tərəfindən davamlı olaraq öyrənilməsinin təmin ediləcəyini diqqətə çatdırıb.

Konfrans digər çıxışlarla davam etdirilib.

# SDU "UI Green Metric"in beynəlxalq reytinqində

"UI Green Metric"in beynəlxalq reytinq sisteminin 2023-cü il üzrə nəticələri açıqlanıb. Sumqayıt Dövlət Universitetinin (SDU) adı ilk dəfə olaraq bu reytinqdə yer alıb.

"UI Green Metric" dünya üzrə universitet infrastrukturunu təkmilləşdirmək, universitetlərin fəaliyyətini və cəmiyyətə təsirinin davamlılığının ölçülməsi istiqamətində fəaliyyət göstərmək üçün könüllü standart yaradılmış ilk reytinqdir.

Universitetləri qiymətləndirmək üçün istifadə olunan "Green metric" reytinqi əsasən ali təhsil müəssisələrinin davamlılıq və ətraf mühitə təsir məsələlərini ölçmək üçün 39 indikator və 6 meyar üzrə qiymətləndirmələr aparır. İnfrastruktur, enerji və iqlim dəyişikliyi, təhsil və tədqiqat, su və nəqliyyat resursları üzrə ATM-lərin təsir gücünə görə sıralamalar aparan bu reytinqdə SDU-nun ümumi balı 1425-dir.

Reytinqdə iştirak etməklə universitetlər avtomatik qlobal şəbəkənin üzvü olaraq, ali təhsil müəssisəsinin davamlılıq siyasətini və fəaliyyətini qlobal arenaya çıxarmaqla beynəlxalq nüfuzunun yüksəlməsinə töhfə verir.

Afrika, Asiya, Yaxın Şərq, Cənubi Amerika və Avropanın 30 ölkəsindən ATM-in iştirak etdiyi bu reytinqdə Azərbaycan hazırda 4 universitetlə təmsil olunur.

# "Magistr dissertasiyaları üçün tədqiqat metodları"



## SABAH qruplarının tələbələri üçün təlim

Bakı Dövlət Universitetinin (BDU) SABAH Mərkəzinin təşkilatçılığı ilə BDU-nun SABAH qruplarının magistratura səviyyəsində təhsil alan tələbələrinə "Magistr dissertasiyaları üçün tədqiqat metodları" mövzusunda təlim keçirilib.

BDU-nun müəllimi və Türkiyənin Ankara Universitetinin doktorantı Qoşqar Bəylərov tərəfindən keçirilən təlimdə SABAH qruplarının müvafiq ixtisasları üzrə magistrlərə elmi tədqiqat işi, tədqiqat metod və texnikaları, dissertasiyanın yazılma qaydaları, ədəbiyyat mənbələrindən düzgün istifadə, ədəbiyyat siyahısının tərtibi, istinad mədəniyyəti, plagiatlıq, rəqəmsal tədqiqat yolları və elmi işlərin təqdimatlarının hazırlanma qaydaları haqqında ətraflı məlumat verilib.

İnteraktiv keçən təlimdə tələbələri maraqlandıran suallar cavablandırılıb. Həmçinin nümunələr əsasında fərqli ixtisaslardan olan tələbələrin dissertasiya mövzularında istifadə edə biləcəkləri tədqiqat metod və texnikaları haqqında geniş müzakirələr aparılıb.

# Peşə təhsili müəssisələrinin maliyyə-mühasibatlıq işçiləri üçün növbəti praktiki seminar

**Dekabrın 6-da Elm və Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin baş mühasiblərinin iştirakı ilə növbəti praktiki seminar keçirilib.**

Seminarın açılışında çıxış edən Elm və Təhsil Nazirliyinin Maliyyə sektorunun müdiri Vüqar Əsgərov seminarın məqsədi, maliyyə-mühasibatlıq işçilərinin müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətindəki rolu, onların vəzifə və funksiyalarından irəli gələn məsuliyyətləri, mühasiblərin bilik və bacarıqlarının artırılmasının vacibliyi, eləcə də dövlət büdcəsində təhsil xərclərinin, o cümlədən peşə təhsilinə ayrılan vəsaitlərin həcmi barədə iştirakçıları məlumatlandırıb, mühasiblərə bir sıra təklif və tövsiyələrini verib.

Sonra Elm və Təhsil Nazirliyinin Təhsilin iqtisadiyyatı şöbəsinin müdir müavini İlqar Bayramlı çıxış edərək büdcə və planlaşdırma, xərclərin proqnozlaşdırılması, ştat-smeta intizamı, adambaşına maliyyələşdirmənin mexanizmi, aidiyyəti müəssisələrin saxlanılması, həmçinin dövlət büdcəsində nəzərdə tutulan xərclər barədə bir sıra statistik məlumatları seminar iştirakçılarının nəzərinə çatdırıb.

Daha sonra seminar Maliyyə, Təhsilin iqtisadiyyatı, Audit şöbələrinin əməkdaşlarının müvafiq təqdimatları və müzakirələrlə davam etdirilib.

Seminarın sonunda mühasibləri maraqlandıran suallar cavablandırılıb, müvafiq təklif və tövsiyələr verilib.



# Qarabağ Universitetində tədrisin təşkilinə öz töhfəmi verməyə hazıram

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Qarabağ Universitetinin təsis edilməsi ilə bağlı Sərəncam imzalayıb. Elm və təhsil naziri Emin Əmrullayev artıq növbəti tədris ilindən Qarabağ Universitetinə qəbul elan ediləcəyini və bu məqsədlə 800-1000 nəfər tələbə kontingentinin nəzərdə tutulduğunu ictimaiyyətə açıqlayıb. Universitetdə nəzərdə tutulan ixtisaslarla bağlı məlumat da ictimaiyyətin diqqətinə çatdırılıb.**

Düşünürəm ki, universitet fəaliyyətə başladıqdan sonra ixtisaslarla bağlı yenilik və təkmilləşmələr də mümkün olacaq. Ölkə başçısının müvafiq sərəncamına əsasən, Elm və Təhsil Nazirliyi tərəfindən tezliklə universitetin növbəti tədris ilindən fəaliyyətə başlaması üçün hazırlıq işlərinin aparılması və qəbul elanı olduqca əhəmiyyətlidir.

Tələbələrin Qarabağ universitetinə qəbul forması ilə bağlı da açıqlama verilib. Belə ki, qəbul prosesi Dövlət İmtahan Mərkəzinin qəbul imtahanları əsasında (I kurs), Elm və Təhsil Nazirliyinin SABAH qruplarına müsabiqə əsasında (II kurs) və mübadilə proqramları və ya yerli universitetlər ilə ikili diplom proqramları (II və ya III kurs) əsasında təşkil ediləcək.

Hesab edirəm ki, Xankəndidə yeni universitetin yaradılması regionlarda ali təhsilin inkişaf etdirilməsi kimi də qiymətləndirilə bilər. Məlumdur ki, Qazax və Şəkidə artıq bu sahədə müəyyən addımlar atılıb, Mingəçevir Dövlət Universitetinin yeni kampus layihəsi qəbul olunub. Düşünürəm ki, Xankəndidə Qarabağ Universitetinin yaradılması Böyük Qayıdış çərçivəsində regionda reinteqrasiya prosesinin müvəffəqiyyətlə tamamlanmasında da ciddi rol oynayacaq.

Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması xəbəri ictimaiyyət arasında sevinclə qarşılanıb. Qısa zamanda artıq gənc alimlər, universitet müəllimləri Qarabağ Universitetində təhsilin təşkilinə öz töhfələrini verməyə hazır olduqlarını bildiriblər. Qarabağ Universitetinin təsis olunması bölgələrdə təhsilin inkişafı kontekstində dəyərləndirilməklə bərabər həm də milli məsələdir, eyni zamanda milli birlik anlayışının möhkəmlənməsinə də töhfə verəcəkdir. Bu vəsilə ilə Qarabağ Universitetində tədrisin təşkilinə öz töhfəmi verməyə hazır olduğumu bəyan etmək istərdim.

**Orxan VƏLİYEV,**
**Xəzər Universitetinin siyasi elmlər və fəlsəfə kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru**

# UNEC QS Dayanıqlılıq Reytinqi 2024 üzrə Azərbaycanda birincidir

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

İkinci dəfə hazırlanan QS Dayanıqlılıq Reytinqi 2024 (QS Sustainability Ranking) açıqlanıb.

95 ölkədən 1403 universitetin iştirak etdiyi reytinqdə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilk dəfə olaraq yer alıb. UNEC Azərbaycanda 1-ci, Asiyada 327-ci, dünyada isə 1051-1100-cü universitet olub.

QS Dayanıqlılıq Reytinqi üç əsas hissədən ibarətdir: Ətraf mühitə təsir faktoru, Sosial təsir faktoru və İdarəetmə.

UNEC "Ətraf mühit dayanıqlılığı" göstəricisi üzrə dünyada 305-ci, "Bərabərlik" göstəricisi üzrə 638-ci və "İdarəetmə" göstəricisi üzrə isə 504-cü universitetdir.

Reytinqi müəyyən etmək üçün istifadə edilən məlumatların 29 faizi universitetlər tərəfindən təqdim edilir, 71 faizi isə QS tərəfindən rəsmi mənbələrə və ölkənin dayanıqlılıq üzrə beynəlxalq reytinq göstəricilərinə istinadən toplanır.

QS Dayanıqlılıq Reytinqi QS Dünya Reytinqində (QS World University Rankings) 5 faiz paya malikdir.

# XV qurultayın əks-sədası

## Azərbaycan müəllimləri XVI qurultayına hazırlaşır



Ölkə müəllimləri növbəti - sayca XVI qurultayına hazırlaşır. Gələn həftə baş tutacaq qurultayda dövlət rəsmiləri və hökumət nümayəndələri, millət vəkilləri, tanınmış ziyalılar, media qurumlarının rəhbərləri, təhsil işçiləri, ümumilikdə 1700-ə yaxın nümayəndənin iştirak edəcəyi gözlənilir.

Qurultayın keçirilməsində məqsəd Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyənləşdirilən hədəflərə necə nail olunduğu, eləcə də 2018-ci ilin noyabrında keçirilmiş Azərbaycan müəllimlərinin XV qurultayından sonrakı müddətdə təhsil sistemində həyata keçirilən tədbirlər və islahatlar barədə ölkə ictimaiyyətini məlumatlandırmaqdır. Bu mühüm tədbir təhsil sistemi qarşısında duran yeni vəzifələri də müəyyənləşdirəcək.

Ümumiyyətlə, qeyd edək ki, qurultay müəllimlərin təhsil həyatında xüsusi əhəmiyyətə malik hadisədir və ənənəvi olaraq 5 ildən bir keçirilir. Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib.

Müstəqillik dövründə Azərbaycan müəllimlərinin artıq 5 qurultayı keçirilib. Ötən V qurultaya ümumi təhsil, orta ixtisas və peşə təhsili müəssisələrindən 1400-ə yaxın, ali təhsil müəssisələrindən isə 200-dən artıq nümayəndə qatılıb ki, "Azərbaycan müəllimi" onların bəziləri ilə 5 il öncə yaşadıqları hissləri paylaşıb, 5 il sonra da canlı qalan təəssüratlarını bölüşüb.

### Qurultayda iştirak etməyin qüruru



Cəbrayıl rayonu Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbin direktoru Zamin Həziyev qurultayda nəinki iştirakçı, hətta çıxışçılardan biri idi: "2018-ci ilin noyabrında keçirilən qurultaya dəvət alanda çox sevindim. Haşiyə çıxaraq qeyd edim ki, 2016-cı ilin aprel döyüşlərində dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəbhədə böyük uğur əldə etmişdik. Ermənilərə sarsıdıcı zərbə vuran ordumuz Lələtəpə yüksəkliyini düşməndən xilas etmiş, Cocuq Mərcanlıda yaşayış bərpa olunmuş, həyat normal axarına düşmüşdü. O vaxt bir ümid işığı yanmışdı və "Cocuq Mərcanlıdan Şuşaya!"fikri güclənmişdi. Çoxlarımız üçün Qarabağa Böyük Qayıdışın başlanğıcı idi Cocuq Mərcanlı kəndində bərpa edilən həyat. Bu fikrin yaratdığı çox böyük, ümid dolu düşüncələrlə qatılmışdım mən də qurultaya. Bu cür böyük hadisələrdən sonra qürurluyduq və elə bu düşüncələrin təsiri ilə qurultayda qürurla iştirak və çıxış etdim. Mən bu kənddə doğulub böyümüşəm. 1993-cü ildə kəndimizi tərk edəndə cəmi 12 yaşım vardı. Üstündən 20 il keçəndən sonra bu kəndə qayıtmışdım. Ürəyimdə həm bu hisslərin, həm qurultayda iştirak etməyin qüruru vardı. Ölkəmizdə 4500 məktəb var və bilirdim ki, təsadüfi hallarda məktəb direktoru qurultayda çıxış edir. Sadaladığım güclü hissin üstünə bunun da qüruru əlavə olunmuşdu. O gün çıxışımın sonunda Qarabağ torpaqlarının tamamilə işğaldan azad olunacağına olan ümidlərimi dilə gətirdim. Xankəndidə Azərbaycanın üçrəngli bayrağının dalğalanacağına olan inamımı ifadə etdim. Bu gün mənim 5 il əvvəl dilə gətirdiyim həmin arzular reallaşıb. Doğrusu, o cür mötəbər tədbirdə, dünyagörüşlü insanların, tanınmış müəllimlərin qarşısında çıxış etməyin məsuliyyəti çox ağırdır. Amma çıxışımdan sonra zaldan aldığım dəstək alqışları hələ qulaqlarımdadı. İndi o günü daha böyük qürurla xatırlayıram. Sevinirəm ki, budəfəki qurultayda sinəsi mənim 5 il əvvəl keçirdiyim hisslərlə dolu çox müəllimlər olacaq. Öz torpağına qayıtmağın sevincini yaşayan, hələ köçə bilməsə də, o günün artıq xəyal olmadığını bilən müəllimlərlə növbəti qurultayın daha möhtəşəm olacağına inanıram!"

### "Qurultayda iştirak etmək mənə stimul verdi"



Qurultay iştirakçılarından biri də İmişli rayonundan qatılıb. O, Buludlu kənd İ.Allahverdiyev adına tam orta məktəbin direktoru Əli Nəcəfov olub. 1979-cu ildən müəllim kimi fəaliyyət göstərən Əli Nəcəfov üçün yaddaqalan çıxışlar çox olub: "Qurultayda iştirak etmək mənə stimul verdi. Qurultayın tələbləri əsasında işimizi yenidən qurduq. Hər müəllim üçün burada iştirak əhəmiyyətli hadisədir".

Ə.Nəcəfov deyib ki, 40 ildən çoxdur məktəb direktorudur və XV qurultay onun fəaliyyətinin ən yaddaqalan hadisəsi olub: "İlk dəfə qurultayda iştirak edirdim. Biz Sovet təhsilinin yetirmələriyik. Qurultayı təsəvvürümdə başqa cür canlandırırdım. Sovet dövründə çağırılan qurultaylar kimi olacağını düşünürdüm. Ancaq tədbir mənim üçün çox maraqlı keçdi. Demokratik prinsiplərin üstünlük təşkil etdiyi ölkə əhəmiyyətli bir hadisə olduğunu gördüm. Azərbaycan təhsilinin keçmişinə hörmət, gələcəyinə ümid verən bir tədbir oldu".

### "Hər yeniliyin ölkə səviyyəsində əks-sədasını gördüm"

Azərbaycan müəllimlərinin qurultayında iştirak edənlərdən biridir Şuşa məktəbinin müəllimi Gülafət Şəfiyeva. Həm də universitetdə dərs deyən G.Şəfiyeva peşəsində nailiyyətləri olan müəllimlərdən biri olaraq müəllimlərin XV qurultayına dəvət edilib. Belə ki, 2015-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsinə qatılaraq uğur qazanıb. 52 balla Şuşa şəhər 8 nömrəli tam orta məktəbində işə qəbul olunub. 2017-ci ildə keçirilən diaqnostik qiymətləndirmədə 58 bal toplayıb və bu nəticəsi ilə yerdəyişmə müsabiqəsinə qoşulub. Şuşa şəhər 3 nöməli tam orta məktəbinə dəyişib: "Mən yenə Şuşanı seçdim. Əslən Şuşadan olan müəllimlərlə çiyin-çiyinə şuşalıların balalarına təhsil vermək istədim".

Bu uğurların ardınca XV qurultayda iştirak etmək də ona çox şey qazandırıb: "Azərbaycandakı təhsil islahatlarının mahiyyəti barədə geniş məlumatlar aldıq. Panel müzakirələrdə xüsusi həvəslə iştirak etdim. Ali təhsil istiqaməti üzrə



perspektivlərdən, təhsildə innovasiyalardan tutmuş şagird qiymətləndirməsinə qədər bir çox mövzuda yeni yanaşmaları öyrəndik. Qurultay ən çox müəllimlərin öyrəndikləri yenilikləri öz aralarında necə qızğın müzakirə etmələri ilə yaddaşıma həkk olundu".

G.Şəfiyevanın fikrincə, qurultayın nəticəsi müasir təhsil sistemində əksini tapıb: "Qurultaydan sonrakı dövrdə müəllimlərin işə qəbulu müsabiqəsində dəyişikliklər, sertifikatlaşdırmanın keçirilməsi bunun təsdiqidir. Yaxud, başqa bir nümunəyə diqqətinizi çəkim. Qurultayda peşə təhsilinin inkişafı ilə bağlı maraqlı müzakirələr oldu, müxtəlif səpgili təkliflər səsləndirildi. Ötən 5 il ərzində peşə təhsilində gedən proses, qət edilən yol və əldə edilənlər həmin müzakirələrin nəticəsiz qalmadığının göstəricisidir".

G.Şəfiyeva qurultayda iştirakçı olmağın qürurverici olduğunu deyib: Müşahidəm əsasında deyə bilərəm ki, elə müəllimlərlə tanış olub müzakirələrə qatıldım ki, onların qurultayda olması təhsilin inkişafına bir töhfə idi".

G.Şəfiyeva qurultayı müəllimlərin islahatları daha yaxşı anlaması və nəticəsini görməsi baxımından da əhəmiyyətli hesab edir: "Qurultayda məktəbdə həyata keçirdiyimiz hər yeniliyin ölkə səviyyəsində əks-sədasını gördüm, nəticəsini öyrəndim. İstər ali təhsil, istər orta təhsil sahəsində həyata keçirilən islahatların nəticəsini göstərən rəqəmlərin təhlilini dinləməyə, kəmiyyət və keyfiyyət dəyişikliyini daha aydın görməyə imkan verən qurultayın sayəsində əslində, Azərbaycan təhsilində nə qədər böyük inkişaf olduğunu görə bildik ".

**Ruhiyyə DAŞSALAHLI**

*Köşə*

## Nəticəsi ağır olan QAFİLLİK



**Vəfa ALLAHVERDİYEVA**

Korona bəlasının gərginliyindən yenicə qopmuşduq, indi də qızılca mərəzi ilə bağlı faktlara və mübahisələrə kilidlənmişik. Ortada yoluxma və ölüm halları var. Bu üzdən 195 nömrəli tam orta məktəbin ibtidai sinifləri distant tədrisə keçib.

İttihamlar acı bağırsaq kimi uzanır. Valideynlər səhiyyəni, səhiyyə ailələri, cəmiyyət də məktəbi suçlayır. Gerçəkdə isə tək bir suçlu var: sosial şəbəkə nəzarətsizliyində son illərdir, yanlış aparılan təbliğat və bu təbliğatın əsiri olan gənc ana-atalar. Bəzi telekanalların həmin qara piarın izi ilə getməsi, aparıcılarının anti-peyvənd ritorikası, Nuh əyyamından qalma türkəçarə reseptlər irəli sürənlərin də bu hay-küyə qoşulması yeni ailələri əməlli-başlı qafilliyə sürükləyib.

Qədim Çinin idarəçilik sisteminə aid bir filmdə maraqlı fraqment var. Əyalətlərin birində təhlükəli epidemiya yayılıb. Bilgi sahibi olan ustaddan vəziyyətə çarə tapması istənilir. Xəstələrə müalicəvi otlardan dəmləmələr verilir. Kömək olmur. Gənc şagird ustadından soruşur ki, bəs, necə olacaq, insanlar gözümüzün qarşısında kütləvi ölüb gedəcəkmi? Deyir, bunun tək yolu virusa qarşı birlikdə immunitet qazanmaqdır.

Xatırlayın, koronanı. Yer üzünə 100 ildən bir gələn qorxunc xəstəliklər bəlasının ünvanı bu dəfə də Çin idi və qədim zamanlardan fərqli olaraq kommunikasiya, sürətli nəqliyyat-logistika dövrü qoymazdı ki, bu xəstəlik elə yaxın əyalətlərlə məhdudlaşıb qalsın; dünyanıca bürüdü, epidemiya sürətlə pandemiyaya çevrildi.

Niyə?

Çünki virusun mənşəyi bəlli deyildi. Peyvəndi də yox idi, düzgün, təsirli müalicə protokolu da. Dükanlarda zəncəfil qalmadı, halbuki çarəsi zəncəfildə deyildi. Dünya peyvənd axtarışı üçün çevik şəkildə hərəkətə keçdi. Bir ilə tam hazırlandı. Bu bir ildə biz kütləvi mübarizə apardıq; ölən öldü, qalan qaldı; peyvəndə səbəb də pandemiyanı başa vurduq.

Viruslar yaş kateqoriyasına görə təsnifatlaşır: korona əsasən yaşlıları tutur, qızılca uşaqları. Amma fərq odur ki, qızılca müasir xəstəlik deyil. Bəşəriyyət qızılcanın peyvəndi kəşf olunana qədər də sözsüz, özünü kütləvi immunitet qazanmaq kimi bir məcburiyyətin ixtiyarına verib. Sonra peyvənd tapılıb və çox uzun zamandır ki, bu xəstəliyin epidemiya səviyyəsində qalmamasına görə dünya məhz QPM (qızılca-parotit-məxmərək) peyvəndinə borcludur.

2019-cu ilə qədər bütün dünyada qızılcaya yoluxma ilə bağlı epidemioloji vəziyyət əla idi. Ümumdünya Səhiyyə Təşkilatının hesabatında xəstəliyin ötən illərlə müqayisədə dörd qat artması isə həyəcan təbilinin çalınması demək idi.

Nə idi bəs, səbəb?

Dezinformasiya! Şayiələr! Qəlp pul kimidir: düzəldənlər fırıldaqçılar, yayanlar düz adamlar olur. Ağızdan-ağıza dolaşdı ki, korona peyvəndinin içində çip adlı müəmmalı nəsə var, dünya bizi bununla izləyəcək. Bu dedi-qodunun acı meyvəsi artıq dərilməyə başlanmışdı. Böyüklər arasında peyvənd xofu iliklərə qədər işlədi. Gənc analar da uşaq peyvəndlərinin içində çip axtarışına çıxdılar. İnternet üzərindən yayılan bu şayiəselinə elə qarışdılar ki, peyvənd qrafikasına məsuliyyətlə yanaşan poliklinikaların işi alt-üst oldu. Hesabatlar hazırlandımı? Hazırlandı. Səhiyyə Nazirliyi bütün uşaqlar arasında ənənəvi peyvəndlərlə bağlı kampaniyanın tam yerinə yetirilmədiyini ictimaiyyətə açıqladı. Bu, artıq o vaxtdan siqnal idi.

Hər il Azərbaycana Ümumdünya Səhiyyə Təşkilatının lisenziyası əsasında Avropa, eləcə də Şərq ölkələrindən vaksinlər daxil olur. Siyahıda 10-dan artıq xəstəlik var və əgər yeni doğulmuş uşaq peyvənd təqvimindən kənarda qalarsa, müxtəlif xəstəliklərdən əziyyət çəkər, hətta ölümə doğru da gedə bilər.

İnsandan-insana keçməklə yayılan qızılca peyvəndi üçün bineyiqədimdən konkret protokol var: 1 yaşda və 6 yaşda QPM peyvəndini almaq mütləqdir. İstərsən özəl xəstəxanada al, istərsən dövlət poliklinikasında- vaksin ölkəyə bir qapıdan girir.

Tibb bacılarının vəzifəsi evimizə zəng vurub peyvəndimizin vaxtını yadımıza salmaqla bitir. Amma poliklinikaların rəhbərliyi anaları peyvənd otaqlarına cəlb edə bilmirsə, peyvəndə dəbi keçmiş moda kimi baxan, peyvənd olunub-olunmamağı dünyanı idrak etməyən uşağın müstəqil seçiminə buraxan, bunu hələ bir uşaq hüquqları sənədinə salmaq davası aparan valideynlərə başa sala bilmirsə, günah tibbi qurumlardan getdi-deməkdir. Onsuz da zərərini uşaq və onu böyüdən valideynlər görəcək: ya əllərinə dəsmal alıb ağlayacaq, ya da həkimlərin qəbuluna düşüb xilas yolu istəyəcək. Poliklinikaların işi isə hesabatı hazırlayıb yuxarılara təhvil verməkdir, analarla əlbəyaxa olmaq yox! Bunun cəza və cərimə mexanizmi yoxdur ki, işə hüquq-mühafizə orqanlarını da qarışdırasan.

Beləcə, hazırkı yoluxma vəziyyətini peyvənddən yayınanlar yaradıb. Epidemioloji təhlükə peyvənd protokolundan keçənlər üçün qorxulu deyil. Keçməyənlərin immuniteti zəif olduğundan ya ölür, ya da başqa fəallaşan xəstəliklər qazanır: miningit, sətəlcəm, vərəm kimi! Hələ deyirlər, korluq da yaradır. Tibbi protokolları yoxa sayan valideynlər, uşaqlarınızın qatili siz özünüz deyilsinizmi?!.

İndi oturub ciddi-ciddi düşünmək lazım: necə yalanlarla bəsirətinizi bağladılar, qəflətə saldılar. Çip deyilən şey insanların ağlını qarışdırmaqdan başqa bir şey deyildi; yalan istehsalçılarının kirli məlumatlardan qazanacaqları karlı bir mənfəətləri var idi. Dünyanın açıq-gizli agentura şəbəkəsi kimi istəyir, onu da izləyir. Əl boyda uşağınız dünya üçün nə təhlükə daşıya bilər ki, onu izləsinlər! Yaxud, peyvəndlə sənin uşağında niyə xəstəlik yaratsınlar ki? Onsuz da qlobal iqlim dəyişikliyi dünyaya özü ilə yeni-yeni xəstəliklər gətirir. Yox, peyvənd ağrılı keçir? Dədə-babadan heç birimiz bunu rahat adlamamışıq, amma ölməmişik də...

Sosial şəbəkələrin qara piarını düzgün piar təmizləməlidir. Yoxsa, biz Uğur Şahin və Özlem Turecinin tibbə verdiyi möhtəşəm töhfədən bəhrələnə, sürətlə yayılan xərçəng bəlasına qarşı yaxın illər üçün proqnozlaşdırılan peyvəndlənmə kampaniyasından da üzüağ çıxa bilmərik.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

1. Avropa dilləri kafedrası üzrə - 1 yer;
2. Rus ədəbiyyatı tarixi kafedrası üzrə - 1 yer.

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Praktik rus dili və onun tədrisi metodikası kafedrası üzrə - 1 yer;
2. Azərbaycan ədəbiyyatı kafedrası üzrə - 1 yer;
3. Beynəlxalq münasibətlər kafedrası üzrə - 1 yer;
4. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə - 1 yer;
5. Tərcümə nəzəriyyəsi və praktikası kafedrası üzrə - 1 yer;
6. Alman filologiyası kafedrası üzrə - 1 yer.

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Diplomatiya və xarici siyasət kafedrası üzrə - 1 yer;
2. Riyaziyyat və informatika kafedrası üzrə - 1 yer;
3. Avropa dilləri kafedrası üzrə - 1 yer
4. Slavyan filologiyası kafedrası üzrə - 1 yer;
5. Ümumi dilçilik kafedrası üzrə - 1 yer;
6. İngilis filologiyası kafedrası üzrə - 7 yer;
7. Rus ədəbiyyatı tarixi kafedrası üzrə - 1 yer;
8. Azərbaycan multikulturalizmi və ölkəşünaslıq kafedrası üzrə - 1 yer;
9. İbtidai təhsil kafedrası üzrə - 3 yer;
10. Jurnalistika kafedrası üzrə - 1 yer;
11. Tərcümə nəzəriyyəsi və praktikası kafedrası üzrə - 1 yer;
12. Alman filologiyası kafedrası üzrə - 4 yer;
13. Rus dili və onun tədrisi metodikası kafedrası üzrə - 1 yer.

**Qeyd:** *müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız aşağıdakı 4 və 5-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):*

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
5. Elmi və elmi-metodiki işlərin siyahısı.

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi-33.
**Telefon:** 599-08-70, daxili nömrə 208

**REKTORLUQ**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Lənkəran Dövlət Universiteti

vakant yerlər üzrə aşağıdakı qeyd olunan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**1. “Riyaziyyat və informatika” kafedrası üzrə:**
Professor: 0.25 ştat - 1 yer (riyaziyyat üzrə),
Dosent: 0.5 ştat - 1 yer (riyaziyyat üzrə),
Baş müəllim: 1.0 ştat - 1 yer (riyaziyyat üzrə),
Baş müəllim: 0.5 ştat - 1 yer (riyaziyyat üzrə).

**2. “Tarix və onun tədrisi metodikası” kafedrası üzrə:**
Professor: 0.5 ştat - 1 yer (tarix üzrə),
Dosent: 0.5 ştat - 1 yer (muzey və arxiv işi üzrə).

**3. “Coğrafiya və onun tədrisi metodikası” kafedrası üzrə:**
Baş müəllim: 0.5 ştat - 1 yer (coğrafiya üzrə).

**4. “Azərbaycan dili və ədəbiyyat” kafedrası üzrə:**
Professor: 0.5 ştat - 1 yer (ədəbiyyat üzrə),
Dosent: 1.0 ştat - 1 yer (Azərbaycan dili üzrə).

**5. “Xarici dillər və tərcümə” kafedrası üzrə:**
Professor: 0.5 ştat - 1 yer (ingilis dili üzrə),
Baş müəllim: 0.5 ştat - 1 yer (rus dili üzrə),
Müəllim: 0.5 ştat - 1 yer (rus dili üzrə).

**6. “İbtidai təhsil və məktəbəqədər təlim” kafedrası üzrə:**
Professor: 0.5 ştat - 1 yer (ibtidai təhsil üzrə),
Baş müəllim: 0.5 ştat - 1 yer (fiziki tərbiyə üzrə).

**7. “Maliyyə idarəetməsi və audit” kafedrası üzrə:**
Kafedra müdiri: 1.0 ştat - 1 yer.

**8. “İqtisadiyyat və innovativ idarəetmə” kafedrası üzrə:**
Dosent: 1.0 ştat - 1 yer (iqtisadiyyat üzrə),
Dosent: 0.5 ştat - 1 yer (iqtisadiyyat üzrə).

**9. “Texnologiya və texniki elmlər” kafedrası üzrə:**
Dosent: 1.0 ştat - 1 yer (informatika üzrə),
Dosent: 0.5 ştat - 1 yer (texnologiya üzrə),
Baş müəllim: 0.5 ştat - 1 yer (informatika üzrə).

**10. “Aqrar elmlər” kafedrası üzrə:**
Kafedra müdiri: 1.0 ştat - 1 yer,
Baş müəllim: 1.0 ştat- 3 yer (aqrar sahə üzrə).

**11. “Baytarlıq” fakültəsi üzrə:**
Dekan: 1.0 ştat - 1 yer.

**12. “Baytarlıq və zoomühəndislik elmləri” kafedrası üzrə:**
Kafedra müdiri: 1.0 ştat - 1 yer.

**Qeyd:** *Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 (bir) ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir.*

**Ünvan:** Lənkəran şəhəri, H.Aslanov xiyabanı - 50.
www.lsu.edu.az, **E-mail:** office@lsu.edu.az

**REKTORLUQ**

# Fövqəladə hallara hazır ol!

## Bölgə məktəblərində maarifləndirmə tədbirləri davam edir





Ümumi təhsil müəssisələrində fövqəladə hallar zamanı davranış qaydalarına dair maarifləndirmə kampaniyasının davamı olaraq növbəti tədbir Balakən rayonu A.Səhhət adına Hənifə kənd tam orta məktəbində keçirilib.

Məktəbin direktoru Cavanşir Alqayev açaraq layihənin əhəmiyyətini vurğulayıb, bu istiqamətdə maarifləndirici görüşlərin keçirilməsinin vacibliyini qeyd edib.

Elm və Təhsil Nazirliyinin əməkdaşı Rövşən Ağayev təhsilalanların və təhsilverənlərin yarana biləcək fövqəladə hallara daim hazır olması, bu vəziyyətlərdə davranış qaydalarına dair vərdiş və biliklərə yiyələnməsi vacibliyini diqqətə çatdırıb.

Məsələ ilə bağlı maarifləndirici videoçarxlar nümayiş olunub. Müzakirə edilən məsələlər barədə Hənifə kənd tam orta məktəbinin valideyn komitəsinin sədri İsmayıl Dibirov, Balakən Rayon Təhsil sektorunun aparıcı məsləhətçisi Sevinc İbadova fikirlərini bölüşüblər.

Qax şəhər N.Allahverdiyev adına 2 nömrəli məktəb-liseydə Xəzər dənizi və su hövzələrində boğulma yanğın təhlükəsinə qarşı maarifləndirici tədbirdə də mövzu ilə bağlı geniş müzakirə aparılıb.

Tədbirdə rayonun tam və ümumi orta məktəblərinin rəhbərləri, valideyn komitə sədrləri, müəllimlər, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin əhatə dairəsində olan rayonların məktəb, peşə və kollec rəhbərləri, eləcə də Qax RİH-in nümayəndəsi, Qızıl Ayparanın rayon təşkilatının rəhbəri və ümumilikdə 150 nəfər iştirak edib.

Tədbiri giriş sözü ilə Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdir müavini Günay Mahmudova açıb. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərimizin, eləcə də 2023-cü ildə anadan olmasının 100 illiyi qeyd edilən Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Elm və Təhsil Nazirliyinin nümayəndəsi Rövşən Ağayev, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Məhbubə Mustafayeva və Nizami Fərəcov, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Qax rayonu üzrə təhsil sektorunun müdiri Babək Heydərov çıxış ediblər.

Çıxışlarda Xəzər dənizi və su hövzələrində boğulma təhlükəsinə qarşı maarifləndirilmə işlərinin aparılması üçün ümumi təhsil müəssisələrində treninq-müşavirələrin keçirilməsi tövsiyə olunub.

Tədbirdə həmçinin bölgələrdə yerləşən məktəbəqədər və ümumi təhsil müəssisələrinin istiliklə təmin olunması və təhlükəsizliyini artırmaq üçün əlavə tədbirlər barədə müzakirələr aparılıb.

Eyni zamanda partlayış təhlükəsinə qarşı təhsilalanların və təhsilverənlərin, valideynlərin məlumatlandırılması və digər fövqəladə halların qarşısının alınması kimi vacib məsələlər diqqətə çatdırılıb.

Tədbirdən sonra Elm və Təhsil Nazirliyinin nümayəndəsi R.Ağayev və qonaqlar rayonun ümumtəhsil məktəblərində pedaqoji fəaliyyətlə məşğul olan Vətən müharibəsi iştirakçıları ilə görüşüblər.

Kürdəmir şəhər R. Quliyev adına 5 nömrəli tam orta məktəbdə “Fövqəladə hallar zamanı baş verəcək hadisələrdən qorunma” ilə bağlı maarifləndirici görüş Mərkəzi Aran Regional Təhsil İdarəsini təşkilatçılığı, Fövqəladə Hallar Nazirliyinin Aran Regional Mərkəzinin dəstəyi ilə baş tutub.

Tədbirdə çıxış edən Fövqəladə Hallar Nazirliyinin nümayəndəsi Ozal Şirinov fövqəladə hallar zamanı davranış, yanğın və dəm qazı ilə əlaqədar təhlükəsizlik qaydaları və digər mövzular barədə məlumat verib.

Elm və Təhsil Nazirliyinin əməkdaşı Əhliyyət Adıgözəlov çıxışında təhsil müəssisələrinin müəllim-şagird heyətinin diqqətini baş verə biləcək fövqəladə hallar zamanı davranış qaydalarının mənimsənilməsi, bu istiqamətdə onların bilik və bacarıqlarını artırmağın vacibliyindən danışıb.

Sonra çıxış edən təhsil sektorunun müdiri Rəfael Məmmədov fövqəladə hallar zamanı görüləcək işlər, atılacaq addımlar, eyni zamanda təxliyə planları barədə məlumat verib.

Daha sonra Mərkəzi Aran Regional Təhsil İdarəsində “Fövqəladə hallar zamanı baş verəcək hadisələrin qarşısının alınması” ilə bağlı daha bir maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözləri ilə açan təhsil idarəsinin müdiri Elçin Kərimov təhsil müəssisələrində fövqəladə hallar zamanı müəllim-şagird heyəti tərəfindən davranış qaydalarına düzgün riayət olunması və bu istiqamətdə maarifləndirici tədbirlərin təşkilinin önəmini vurğulayıb.

Tədbirdə çıxış edən Fövqəladə Hallar Nazirliyinin nümayəndələri Məhbubə Mustafayeva və Nizami Fərəcov fövqəladə hallar zamanı davranış, yanğın və dəm qazı ilə əlaqədar təhlükəsizlik qaydaları və digər mövzular barədə məlumat veriblər.

Sonda fövqəladə hallar zamanı baş verəcək hadisələrin qarşısının alınması ilə bağlı videoçarx nümayiş olunub.

Qeyd edək ki, görüşün keçirilməsində məqsəd yanğın, dəm qazı, digər fövqəladə hallar zamanı davranış qaydalarına dair bilik və bacarıqların təkmilləşdirilməsi, bu istiqamətdə maarifləndirmə prosesinin fasiləsizliyinin təmin edilməsindən ibarətdir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Sumqayıt Dövlət Universiteti**

ştatda boş olan vəzifələri tutmaq üçün

**MÜSABİQƏ ELAN EDİR:**

Kimya və biologiya fakültəsi üzrə dekan
Filologiya fakültəsi üzrə dekan

*Qeyd: Sənədlər, elan dərc olunan gündən bir ay (30 gün) müddətində təqdim oluna bilər.*

*Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim etməlidirlər.*

*Az5008 Sumqayıt, 43-cü məhəllə, SDU, otaq 233, (018) 642-15-06 Əlavə: 1-16*

**Rektorluq**

# "Fizika aylığı" çərçivəsində "açıq dərs"



Noyabrın 28-də Ucar rayonu Heydər Əliyev adına Qazıqumlaq kənd 2 nömrəli tam orta məktəbin VIII b sinfində Lamiyə Məmmədovanın fizika fənnindən “Maddənin aqreqat halları” mövzusunda “açıq dərs”i dinlənilib. Dərs zamanı maddənin aqreqat hallarını, bərk cisimlərin 2 yerə bölünməsi, kristal cisimlərin konkret ərimə və bərkimə temperaturlarının olması şagirdlərin diqqətinə çatdırılıb, həmçinin dərsdə mövzuya dair təcrübələr aparılıb və sonra “dəyirmi masa” ətrafında Elm və Təhsil Nazirliyinin Daxili Nəzarət şöbəsinin baş məsləhətçisi Rövşən Ağayev, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin əməkdaşı Əhliyyət Adıgözəlov, Mingəçevir Dövlət Universitetinin prorektoru, iqtisad elmləri doktoru, professor Veysəl Əyyubov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, Ucar rayonunun bir neçə məktəb direktoru, fizika müəllimlərinin iştirakı ilə “açıq dərs”in müzakirəsi keçirilib. Dərs geniş təhlil edilərək tövsiyələr verilib.

“Dəyirmi masa”nın iştirakçıları belə “açıq dərs”lərin keçirilməsinin gənc müəllimlərin gələcək fəaliyyətində bir təcrübə olduğunu vurğulayıblar.

Daha sonra qonaqlar məktəblilərin iştirakı ilə “fizika aylığı” çərçivəsində təşkil olunan tədbirdə iştirak ediblər. Tədbirdə şagirdlərin ifasında şeirlər səsləndirilib, müxtəlif kompozisiyalar, səhnəciklər və təcrübələr nümayiş etdirilib.

Qeyd edək ki, məktəbdə eyni zamanda STEAM layihəsi və X-XI siniflərdə peşə təmayüllü siniflər də həyata keçirilir. Layihələr çərçivəsində görülmüş işlər barədə məktəbin foyesində sərgi təşkil olunub.

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4094 **Sifariş** 3261

**Məsul növbətçi:** Ş.Cəfərov

# Etibarsız sayılır

**“Zəngi” Liseyini** 2015-ci ildə bitirmiş Süleymanzadə Əkbər Elmir oğluna verilmiş A-421614 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Bağırov Asim Aydın oğluna verilmiş B-477919 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Nuri Elmin Arif oğluna verilmiş E-272695 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2020-ci ildə Qənbərova Ləman Müslüm qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədbəyov Kamran Murad oğluna verilmiş E-557445 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Kazımova Fidan Cavanşir qızına verilmiş C-163899 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Maliyyə İqtisad Kolleci** tərəfindən 2023-cü ildə Hacızadə Nərgiz Sahil qızına verilmiş təhsil kartı itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş İsayev Rüstəm Məmməd oğluna verilmiş A-583163 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Şabanov Oruc Zakir oğluna verilmiş AO-0969 nömrəli tam orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Orucov Turab Burca oğluna verilmiş B-327040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Danaçı kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Şabanov Hacımurad Nəzir oğluna verilmiş A-728318 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Paşan kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Davudov İlyas Əhmədoviçə verilmiş B-119550 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 87 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Mamedova Gülyanə Rəşid qızına verilmiş 039898 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2021-ci ildə Tağıyeva Aysun Qabil qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Zəngənə kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Usubov Cahangir Əhməd oğluna verilmiş B-313124 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2019-cu ildə İbrahimzadə Fərman Elçin oğluna verilmiş C-040122 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Nərimankənd kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Ağamalıyeva Məxruq Balaxan qızına verilmiş A-10 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Qobu qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Bağırova Nəcibə Azər qızına verilmiş A-805784 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qapanlı kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Məmmədova Ruhiyyə İbrahim qızına verilmiş A-105295 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Babayev Nəriman Elbrus oğluna verilmiş E-055043 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 4 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Quliyev Ceyhun Rauf oğluna verilmiş B-337888 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əlizadə Ramilə Faik qızına verilmiş A-364229 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Xolqaraqaşlı kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Vəliyev Şahin Ağasəf oğluna verilmiş A-740820 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 62 nömrəli məktəb-liseyi 2005-ci ildə bitirmiş Şükürova Nuriyə Fazil qızına verilmiş B-192623 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Abbasəliyeva (Vəlibəyli) Türkan Rövşən qızına verilmiş A-023086 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** 4 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Mirili Qoşqar Pirverdi oğluna verilmiş A-412812 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universitet** tərəfindən 1998-ci ildə Qəhrəmanov Emin Nadir oğluna verilmiş A-025035 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Hacızadə Tural Kamal oğluna verilmiş A-064562 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 1999-cu ildə Qaraxanova Ramilə Rəşid qızına verilmiş AB-II-047209 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Sədərək kənd 1 nömrəli tam orta məktəbin VIII sinfini 1992-ci ildə bitirmiş Səlimov Əmir Nəsib oğluna verilmiş A-081941 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** (indiki Bakı Slavyan Universiteti) tərəfindən 1996-cı ildə Mehdiyeva Yazgül Fərhad qızına verilmiş AB-I-014285 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş İbrahimova (İsmayılova) Naibə İsa qızına verilmiş E-388839 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Təzə Şilyan kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılov Nicat Rəhim oğluna verilmiş A-336374 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Kolleci** tərəfindən 2021-ci ildə Rüstəmova Nurlana Natiq qızına verilmiş AA-155052 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** Akademik Z.Əliyeva adına 8 nömrəli məktəb-liseyi 2011-ci ildə bitirmiş Əhmədov Süleyman Nadir oğluna verilmiş A-072344 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Ərəb kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Cəfərova Firuzə Azad qızına verilmiş B-702832 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 3 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Quliyev Vasif Şahin oğluna verilmiş B-400184 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 213 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Məmmədov Eltun Elnur oğluna verilmiş E-196254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 32 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Zeynalov Murad İslam oğluna verilmiş E-491465 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar şəhər** 2 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Babayev Rahib Vahid oğluna verilmiş A-109598 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2002-ci ildə Əliyev Rəşad Səməndər oğluna verilmiş A-100586 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Əhmədova İlhamə Xasay qızına verilmiş 000702 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xoreoqrafiya Məktəbi** tərəfindən 2014-cü ildə Abbasov Əkbər Vitaliy oğluna verilmiş AA-040620 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** Sitalçay kənd tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Baxşiyeva Həmyə Elbrus qızına verilmiş A-899896 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1997-ci ildə Məmmədov Əşrəf Qədir oğluna verilmiş AB-I-076141 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 20 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əsədova İradə Oktay qızına verilmiş A-232697 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Ağazadə Əli Şəmsəddin oğluna verilmiş 713464 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Kəlbəhüseynli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Ələkbərova Səmadə Nazim qızına verilmiş A-298432 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Universiteti** tərəfindən 2020-ci ildə Şahhüseynov Amal Mahmud oğluna verilmiş C-089937 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Nic qəsəbə 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Kukari Dmitri Vasilyeviçə verilmiş B-059004 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Çərçiboğan kənd tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Seyidov Ağa Mirfərzi oğluna verilmiş B-175660 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Püsyan kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qasımova (Həsənova) Xəyalə Natiq qızına verilmiş A-278365 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qızılağac kənd 1 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Əsgərova Bahar Xeyrulla qızına verilmiş A-179950 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Evdə fərdi təhsil məktəbi 2020-ci ildə bitirmiş Qafarov Rauf Mehman oğluna verilmiş E-334396 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2000-ci ildə Umuxanova Elnarə Şahmir qızına verilmiş B-057131 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Cəfərova Sevinc Elman qızına verilmiş B-308508 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 185 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Cəbrayılov Elmar Eldar oğluna verilmiş E-198601 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** N.Tusi adına təbiət və texniki təmayüllü məktəb-liseyi 2015-ci ildə bitirmiş Həsənova Fatma Yalçın qızına verilmiş A-473325 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Qocayeva Aygün Mövlud qızına verilmiş A-128704 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 4 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Hacımuradova İyala Musabəy qızına verilmiş B-107477 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 14 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Əkbərli Pərviz Rəhbər oğluna verilmiş A-450610 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Əliyeva Vəfa Mobil qızına verilmiş B-209771 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş İsmayılova İranə Etibar qızına verilmiş A-965462 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Məmmədova Aylin Natiq qızına verilmiş C-148624 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin ibtidai sinif müəllimi Sevinc Məmmədovaya anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# "Yeniliklərə açıq olmalıyıq"

*Sevinc Məmmədova, Corc Vaşinqton Universitetinin proqram direktoru:*

## "Təhsildə transformasiya çox ehtiyatlı və yavaş getməlidir"



Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və Corc Vaşinqton Universiteti (CWU) arasında "Təhsil və insan inkişafı: təhsil siyasəti və liderlik" ixtisası üzrə ikili diplom proqramı öz hədəflərinə çatmaqdadır. Artıq proqramın məzunları təhsil sahəsində öz uğur hekayələrini yazmaqdadır. Bugünlərdə proqram üzrə keçilən dərslərdə iştirak edərək Corc Vaşinqton Universitetinin proqram direktoru Sevinc Məmmədova və amerikalı professor Ceyms Villiyamsdan "Azərbaycan müəllimi" üçün müsahibələr aldıq. Söhbətimizə öncə Sevinc Məmmədova ilə körpü saldıq. Müsahibimiz proqramın icrası və nəticələri barədə məlumat verdi.

- Artıq 50-yə yaxın tələbəmiz məzun olub. Onların məzun olmaları artıq böyük bir uğurdur. Yəni ağır bir proqramdan çıxmaq və sonrakı tərəqqini görmək böyük uğurdur. Məzunlarımız artıq öz biliklərini, öyrəndikləri alətləri tətbiq etməyə başlayıblar. Bəzi məzunlarımız xaricdə doktorantura təhsili alır, bəziləri proqramdan sonra öz iş yerlərini dəyişərək təhsil sahəsində çalışırlar. Onlar təhsil sahəsində yeni, məsələn, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bağlı yeni layihələr icra edirlər. Digər əməkdaşlarımız autizm sindromu olan uşaqlarla bağlı layihələr həyata keçirirlər. Bəzilərinin isə təhsil texnologiyalarına çox böyük maraqları var. Onlar bu sahədə müxtəlif platformalar üzərində işləyirlər.

Proqramın başlıca məqsədi nədir? Biz onlarda fikir, düşüncə bacarıqlarını oyatmağa və daha da genişləndirməyə çalışırıq ki, təhsil məsələlərinə başqa prizmadan baxsınlar. Çünki bəzən biz özümüz də hiss etmədən eyni problem üzərində dönə-dönə fikirləşirik, ancaq onun kökünün nədə olduğu, ona təsir edən faktorları, amilləri düşünmürük. Hər iki universitet olaraq məqsədimiz həmin o düşünüləcək məsələlərə tələbələrin fərqli yanaşmalarını tədris etməkdir. Biz görəndə ki, məzunlarımız 2-3 ildən sonra artıq onu tətbiq etməyə başlayıblar, bunu proqramın böyük uğuru saya bilərik.

- *Təhsil siyasəti, insan inkişafı dünya təhsil sistemləri üçün nə dərəcədə aktualdır və bu aktuallıq nə ilə bağlıdır?*

- Düşünürəm ki, xüsusilə son illərdə süni intellektin (SI) sürətli inkişafı dünyada birdən-birə xaos yaratdı. Universitetlər artıq narahat olmağa başladılar ki, bizim tələbələrə verə biləcəyimiz bacarıqları artıq SI verir. Əvvəllər biz uşaqların, məsələn, riyaziyyat nəticələrinin nəyə görə aşağı və ya yuxarı olmasından danışırdıq. İndi isə artıq söhbət ondan gedir ki, biz təhsili və insan inkişafını necə birləşdirə bilərik ki, robotların, texnikanın verdiyi bacarıqları daha da üstələsin. Əvvəl fikirləşirdik ki, yazı yazmaq bacarığı çox vacibdir, indi isə artıq onu bizə SI verir. Universitetlər, təhsil ocaqları, məktəblərin yükü çox artıb. Onlar tədris prosesini elə bir kreativ yanaşma ilə təşkil etməlidirlər ki, SI tərəfindən əvəz oluna bilməsin. Buna görə də bu, artıq insan inkişafı, təhsilin daha da humanistləşdirilməsi, dəyərlərə əsaslanan təhsil və s. böyük bir trendə çevrilib. Bu, təkcə Amerika, Azərbaycan üçün deyil, bütün ölkələr, təhsil sistemləri üçün xarakterikdir. Fikirləşirəm ki, biz təhsil və insan inkişafını necə qabarıq şəkildə böyük bir təhsil siyasətinə çevirə bilərik ki, çağırışlara cavab versin.

- *Təhsili daha da inkişaf etdirmək üçün nələr etməliyik?*

- Məncə, ən birincisi biz yeniliklərlə, bu inkişafla necə uzlaşmaq lazım olduğunu öyrənməliyik. Ən vacib şərt nə etməliyik sualıdır. Əgər yenilikləri qəbul edə bilmiriksə, gözümüzü açanda görəcəyik ki, artıq gecikmişik, onda gec olacaq. Ona görə də yeniliklərə, dəyişikliklərə açıq olmalıyıq.

Biz tələbələrə öyrədirik ki, bir-birinizə qarşı açıq fikirli olsunlar, bir-birlərinə sual versinlər. Əgər yaxşı sual verə bilmirsənsə, onda sən yaxşı tələbə deyilsən. Əgər sual varsa, deməkki, beyin fikirləşir. Bir çox alimlər var ki, onları oxumaq üçün universitetdə gedib magistr təhsili almağa ehtiyac yoxdur. Amma elə bacarıqlar var ki, onu oxumaqla əldə etmək olmur. Məsələn, sual vermək bacarığı. Bu, bir -iki günə yaranan qabiliyyət deyil. Mən Amerikaya köçəndə 2-3 il mənim üçün çətin idi. İlk verdiyim suallarla indi verdiyim sual arasında böyük fərq var. Bu, bir prosesdir, onu da tələbələrə biz öyrətməliyik. Tələbələri sual verməyə həvəsləndiririk, sonra hansı informasiyanı seçmək istəyirlərsə, özləri seçsinlər, bunu onların öhdəsinə buraxırıq.

- *Təhsildə innovasiyaların rolunu necə qiymətləndirirsiniz?*

- Düşünürəm ki, innovasiyaların ən pik dövrünə doğru gedirik, hər sahədə yenilik istəyirik. Bütün təhsil mövzuları yeniliklər, çağırışlar və innovasiyalarla bağlıdır. Tələbələri innovasiyalara aparan da bacarıqlar, yeni düşüncə bacarıqlarıdır. Əgər biz onu uşaq vaxtından tətbiq etmiriksə, uşağa sual verməyi, axtarmaq, tapmaq, axtarışda olmağı öyrətmiriksə, onda heç bir innovasiyadan danışa bilmərik. İnnovasiyaların hər biri həmişə uğurlu olmur. O qədər uğursuz innovasiyalar olur ki, məhz onun nəticəsində uğurlu innovasiyalar üzə çıxır. Bəzən biz hər hansı innovasiya edirik, uğursuz olanda qorxuruq. Amma bu, əslində öyrənilmiş dərslərdir. Bu kimi proseslər innovativ fikirlərin yaranmasına kömək edir.

Uşaqlar erkən yaşından çox informasiya alırlar. Fikirləşirik ki, əgər tələbə riyaziyyatı yaxşı bilirsə, vurma cədvəlini yaxşı bilirsə, ağıllı tələbədir. Ancaq vurma cədvəlini öyrənməyin səkkiz yolunu bilirsə, o daha yaxşı tələbədir. Çünki o, 8 həll yolunu bilir. Mən belə düşünürəm. Ola bilsin ki, uşaq 12-yə qədər ədədləri vura bilmir, ancaq 5-ə qədər vura bilir, amma onu 8 yolla vura bilir. İnnovasiyalar da belədir.

Əgər biz çoxlu alimlər yetişdiriksə və onların içindən tam iki nəfər innovasiyalarla məşğul olursa, innovativ fikirlər, düşüncələr gətirirsə, bu, çox gözəldir. Şagirdlərə aşağı sinifdən açıq sual verməyi öyrədə bilməliyik. Yəni 5 almaq vacib deyil, şagird 3, 4 də ala bilər, amma yeni düşüncələrini yavaş-yavaş inkişaf etdirə bilsin. Bu, vacibdir, indi hər ölkə buna fərqli yanaşır. Mən Amerikada yaşadığım üçün məsələyə bu təcrübə ilə yanaşıram. Düşünürəm ki, Amerika bu istiqamətdə yaxşı işlər görür. Azərbaycanda da artıq bu yanaşmanın tətbiqinə başlanılıb. Ümid edirik ki, bizim tələbələrimiz artıq işləməyə başlayanda mütləq bunu təbliğ edəcəklər.

- *Ser Ken Robinsona görə, təhsildə uğurlar bir çox halda uğurlu tədris mühitindən asılıdır. Biz bu uğurlara aparan tədris mühitini necə yarada bilərik?*

- Çox yaxşı sualdır. Biz həmişə tələbələrimizə öyrədirik ki, yaxşı təhsil sistemini də dizayn eləmək lazımdır. Amerika üçün yaxşı mühit Azərbaycan üçün yaxşı mühit olmaya bilər. Ona görə lokal cəmiyyətin, icmanın onların ehtiyaclarına uyğun bir təhsil sistemi və təhsil mühitini yaratmaq lazımdır.

Biz ümid edirik ki, tələbələrimiz bu vacib yanaşmaları öyrənməklə artıq gedib hər regionun, hər kəndin, hər şəhərin öz mühitinə uyğun olan yaxşı bir tədris mühiti yaratmalıdır.

Qayıdaq yaxşı mühit nədir sualına. Mən düşünürəm ki, yaxşı mühit yaxşı insan yetişdirən mühitdir. Ola bilsin ki, uşaq 4 -5-ci siniflərdə yaxşı oxumur, birdən-birə başlayır yaxşı oxumağa. Müəllimlərimiz bu gec çiçək açanlar üçün mühit yaratmalıdır.



- *Növbəti sual təhsili idarəetmə ilə bağlıdır. Təhsil idarəçiləri ənənəvi yanaşmalardan çıxmalı və ya yeniliklərə adekvat olmalıdır...*

- Yaxşı sualdı. Mən əslində, təhsili idarəetmədə qarışıq modeli çox sevirəm. Elə ənənəvi yanaşmalar var ki, onlar illərdir işləyib və onu saxlamaq lazımdır. Tutaq ki, regionun xarakteristikasına uyğun olan yanaşmalar var. Tarixi, mədəni faktorlar var ki, onları dərhal dəyişdirə bilmərik. Həmçinin yeni yanaşmaları bilməliyik. Məsələn, V sinifdə uşaqları riyaziyyatdan ildə 5 dəfə test eləmək artıq işləmir. Yeni yanaşmalar nədir, onu öyrənmək lazımdır. Yeniliklərə açıq olmalıyıq və bu idarəçilərdən gəlir. Düzdür, icraçılar həmişə müəllimlər və müəllim köməkçiləri olur. Amma idarəçilər fikirləri tətbiq edənlərdir. Ona görə, düşünürəm ki, hər ikisinin qarışığı, ənənəvilik və yeniliklərin bir yerdə olması daha yaxşı nəticə verir.

- *Hazırda beynəlxalq platformalarda təhsilin transformasiyasından çox danışılır. Təhsilin transformasiyası nə vəd edir?*

- Transformasiya həm yaxşıya, həm də pisə doğru gedə bilər. Transformasiyanı aparanda baxmalıyıq ki, biz tələbələrə nəyi çatdırmaq istəyrik? Biz həmişə tələbələrimizə deyirik ki, "torpağı həmişə hazırlamaq lazımdır, birdən-birə biz orada ağac əkə bilmərik". Yəni təhsildə inkişaf da belə olmalıdır. Birdən-birə biz nəyisə gətirib, gəlin transformasiya edək, bu, mümkün deyil. Təhsildə transformasiya çox ehtiyatlı və yavaş getməlidir, bu, bir prosesdir. Biz onu mərhələli şəkildə eləməliyik. Biz birdən-birə hər şeyin dəyişilməsini istəyə, həm müəllimi, həm şagirdi, həm universitetləri dəyişdirə bilmərik.

- *Təhsil sistemində həyata keçirilən bir çox layihələrlə tanışsınız. Təhsil sahəsində hansısa təşəbbüs, layihələriniz varmı?*

- Mənim ən çox narahat olduğum təhsil pilləsi erkən təhsildir. Düşünürəm ki, bütün təhsil transformasiyaları, dəyişiklikləri erkən təhsildən başlamalıdır. Və erkən təhsil 5 yaşından deyil, ondan başlamalıdır ki, artıq 2-3 yaşından uşaq hansı dəyişikliklərdən keçməlidir.

Çünki erkən təhsildən orta məktəbə və ali təhsilə, sonradan əmək bazarına gedən uşaqlar Azərbaycan iqtisadiyyatına töhfə verirlər. Bu gün təhsilə qoyulan vəsait 15 ildən sonra iqtisadiyyatımıza təsir edir. Ona görə şəxsən mən erkən təhsildən başlayardım. Erkən təhsildə informasiya yükləmə yox, daha çox uşaqlarda kreativ düşüncə, onların yanaşmalarının müxtəlifliyi və s. bu kimi təhsil siyasəti üzrə yeni işlər aparardım.

- *Tələbələr, gələcəyin təhsil idarəçilərinə nə kimi tövsiyələrimiz olardı...*

- Öyrənməyi davam etsinlər, həmişə özlərinə sual versinlər. Yeni fikirlərə açıq olsunlar. Əgər insan öz üzərində işləyirsə, bu, yaxşı bacarıqdır. Tövsiyəm budur ki, gənclərimiz, proqramın məzunları, iştirakçıları öz üzərlərində işləsinlər və ideyaları inkişaflarına cəm etməyi dayandırmasınlar. Çünki 100 fikirdən biri hardasa öz yerini tutur. Bizim Corc Vaşinqon Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti də belə bir fikri böyük ideyaya çevirə bildi. Artıq bu ideya dövlət əhəmiyyətli bir proqrama çevrilib.

## "Mən onların öyrənmə istəklərinə heyranam"



Amerikalı professor Ceyms Villiyams ADPU və Corc Vaşinqton Universiteti arasında "Təhsil və insan inkişafı: təhsil siyasəti və liderlik" ixtisası üzrə ikili diplom proqramı üzrə keçdiyi dərslər və tələbələrimizin öyrənmə həvəsi və motivasiyası barədə "Azərbaycan müəllimi"nə danışır:

- Mən öz təəssüratlarımı sizinlə bölüşüm. Mən onların motivasiyasına, öyrənmə istəklərinə heyranam. Onların çox yüksək səviyyədə öyrənmə istəkləri var. Bu, yaxşı başlanğıcdır. ABŞ-da tələbələrimiz öyrənmə prosesinə daha az maraq göstərirlər, ola bilsin ki, onların çox imkanları var. Ən vacib məsələ ondan ibarətdir ki, tələbələrimiz öyrənmə prosesinə çox həvəslə yanaşırlar. Biz onlara yerli konteksti, məzmunu öyrədirik. Ancaq ən böyük məqsədimiz dərslərdə onlara düşüncə prosesini, necə düşünməyi öyrətməkdir.

Düşünürəm yaxşı bir haldır ki, bu proqramda iştirak edənlərin bu sahədə təcrübələri var. Bu, çox yaxşı bir kombinasiyadır, həm məzmun bilikləri, həm təcrübələri var. Bu düşüncə onlara imkan verir ki, hansısa bir problem haqqında yaxşı düşünə bilsinlər. Üçüncü vacib bir element isə akademik göstəriciləri, uğurları var. Yəni, çox yaxşı təhsilləri var. Biz onların beyinlərində olan bilikləri daha da genişləndiririk. Ancaq daha çox bacarıqlara fokuslanırıq. Bu spesifik dərs beynəlxalq təcrübəyə əsaslanır. Biz beynəlxalq təcrübələri tələbələrlə bölüşürük. Azərbaycan bu təcrübələrdən nə öyrənə bilər, bu barədə danışırıq. Əsas məqsədimiz Azərbaycanı qlobal kontekstdə göstərmək, güclü və zəif cəhətlərini başqa ölkələrlə müqayisə etməkdir. Biz buna "borc almaq" deyirik, yəni başqalarından nə götürə bilərik. Başqa ölkələrə baxmaq, bu, normaldır.

Məqsədimiz bütün sistemi öyrənib tətbiq etmək deyil, həmin sistemin içində olan xüsusi, tutaq ki, müəllim, şagird faktoru və yaxud peşəkar inkişaf və s. hər sistemdən nəyisə öyrənib tətbiq edə bilərik, onları öyrənməkdir. Yəni bütün sistemi köçürmək yox, hər sistemdən hansısa elementləri öyrənib Azərbaycan üçün istifadə edə bilərik, bunu öyrədirik.

- *Azərbaycanlı tələbələrimiz artıq özlərini Amerika kontekstində təhsil alan tələbələr kimi hiss edə bilərlərmi?*

- Bəzi adaptasiyaları etməklə, bəli! Amerikada bəzi azərbaycanlı tələbələri tanıyıram, onlar çox uğurlu olublar. Bəlkə də onlar xüsusi tələbələrdir, bəlkə də Azərbaycanda olduğu kimi adi tələbələrdir. Hər dərsin, hər fənnin özünün xüsusi pedaqoji yanaşması var. Misal üçün, bizim digər professorumuz doktor K.Qrin öz dərsində azərbaycanlı tələbələri kurikulum haqqında daha dərin fikirləşməyə vadar edir. Bizim dərs isə daha çox mövzunu açmaq və ideyaları tapmaqdır. Bu, çox fərqli bir dərsdir. Yəni biz xüsusi bir bilik vermirik. Amma onlara düşünmə prosesində kömək edirik.

Dərs prosesi, ümumiyyətlə, düşünmə qabiliyyətini inkişaf etdirmək prosesidir. Mənim sentyabrda dərs dediyim fənn daha çox alətləri necə inkişaf etdirmək, necə alətlər yaratmaq, həmin alətlərdən təhsil sistemində olan dəyişikliklərdə necə istifadə etmək olar, daha çox bunlara fokuslanmışdı. Bu, çox sxemə salınmış bir dərs idi. Bəzi dərslər var ki, "necə edək" sualına cavab verir, bəzi dərslər var ki, "nə edək" sualına cavab verir. Bu fənn isə "niyə edək" sualına cavab verir.



### "Proqram düşüncə bacarıqlarımızın inkişafına səbəb olur"

*Şəmsinur Əsədova, proqram iştirakçısı:* - ADPU və Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramının bir parçası olmaqla, hər iki universitetdən olan tanınmış professorlar və təhsil ekspertləri ilə əməkdaşlıq etmək imkanı qazanmışıq. Baxmayaraq ki, bu proqramda nisbətən yeniyik, bu, bizim tədqiqat və yaradıcı düşüncə bacarıqlarımızın inkişafına səbəb olur. Eyni zamanda, iki müxtəlif ölkənin təhsil strategiyalarını müqayisəli şəkildə öyrənərək, hər ikisinin müsbət tərəflərini götürüb birləşdirmək imkanımız var. Proqramın bu ilk mərhələsində belə, karyeramda qarşılaşacağım baryerlər və imkanlar üçün hazırlaşdığımı hiss edirəm. Hər iki universitetin təqdim etdiyi dəstək həm şəxsi, həm də peşəkar inkişafımda mühüm rol oynayır.

**Oruc MUSTAFAYEV**